Mark Dügen

# Sunami

Fransızcadan tərcümə:
Vüsalə Yarıyeva

qanun nəşriyyatı

Marc Dugain

# Tsunami

Mark Dügen “Sunami” romanı ilə Fransanın siyasi parçalanmasını izah edir və yorğun bir ölkə haqqında əxlaqdan kənar maraqlı siyasi nağıl nəql edir.

Romanın qəhrəmanı getdikcə daha da çılğınlaşan Fransanı idarə edən prezidentdir. Biz bu həqiqi romanda onun zahiri görkəmdən kənardakı xaotik gündəlik həyatını kəşf edirik və bu, həqiqətən də, valehedicidir. Onun siyasi baxışı aydındır: “insanları” evə necə gətirəcəyini bildiyi üçün onları küçələrə çıxarmaqdan çəkinmədən mümkün qədər ümumi maraqlar naminə islahatlar aparmaq. Amma onun bir çox tərəddüdləri var. Onun gələcəyi daha qeyri-müəyyəndir, buna görə də bizə ilk növbədə onun özünü kəşf etmək lazımdır. Yaxın gələcəkdə Fransa Respublikasının Silikon Vadisi nəhənglərinin dəstəyinə baxmayaraq, zəif, yuxusuzluqdan əziyyət çəkən gənc prezidenti konstitusiya islahatları aparmaq, kokain və ofşor hesablarla bağlı kompromatları aradan qaldırmaq üçün öz səylərini əsirgəmir. Ona kömək etmək üçün çalışqan mütəxəssisləri var və onlar da heç vaxt yatmırlar. Bütün bu insanlar heyrətamiz dərəcədə təkəbbürlüdürlər. Onlar yalnız öz imtiyazlarını qorumaq üçün yaşayırlar. Bununla belə, bəzi yerlərdə biz onların arasında hər şeyin yaxşılığa doğru dəyişməsi üçün heç nəyi dəyişmək istəməyən bu narahat xalqa empatiya bəslədiyi anları da görürük. Şübhəsiz ki, biz dağıdıcı sunaminin yaxınlaşdığını hiss edirik.

## Xəbərdarlıq

Ölüm həyatı dözülən edən bütün kibirlərin və bütün boş xəyalların uğursuzluğu olduğu üçün insan həmişə ölümsüzlüyə – öz qeyri-ardıcıllığını sonsuzadək davam etdirmək qabiliyyətinə meyillənir. Bu araşdırmaya, xüsusən də rəqəmsal nəhənglər tərəfindən hər il milyardlarla dollar sərmayə qoyulur, onların layihəsi isə bundan ibarətdir: insan Tanrının bəri başdan onun üçün təyin etdiyi yeri tuta bilsin deyə Tanrını öz hədsiz təvazökarlığı ilə əvəz edərək onun varlığına son qoymaqdan ibarətdir. Ancaq bütün bunların heç biri sabah üçün deyil və biz tezliklə uğur qazanmağın mümkünlüyü ilə bağlı həvəsimizi soyutmalıyıq. Digər tərəfdən, əmin olduğumuz şey odur ki, növbəti beş il ərzində hüceyrələrimizə birbaşa müdaxilə etməklə onların keçmiş varlığının üçdəbirini cavanlaşdıra biləcəyik, indiyədək görünməmiş cavanlaşdırma müalicəsinin əminliyidir bu. Bu kitab bu əminliyi nəzərə alır.

## Proloq

Bu mətnin taleyi haqqında heç bir fikrim yoxdur. Deyərdim ki, o, xatirələrdən daha çox salnamədir. Mənim onu sağlığımda nəşr etmək və ya ölümümdən sonra nəşrini təşkil etmək kimi bir fikrim də yoxdur. Ancaq vəzifələrimlə yanaşı, bu cür gündəlik tutmağa səy göstərirəmsə, bu, izahı olduqca sadə olan yaxşı səbəbə görədir: mən özümə baxa biləcəyim bir güzgüyə sahib olmaq istəyirəm. Bu kitab vəzifəmin mənə artıq olmağa icazə vermədiyi adamı yenidən tapmaq üçün mövcuddur ki, mən asanlıqla təslim ola biləcəyimiz razılıqlar olmadan bir həqiqət forması ilə qarşılaşa bilim. Mən yalan danışmağı çox gözəl bacarıram, amma bunu burada etmək istəmirəm, çünki məni həqiqətlə məşğul olmağa məcbur edən vəzifəmin tələblərini yerinə yetirməyə davam etmək istəyirəm. Bu işdə atdığım ilk addımlarımdan öyrəndim ki, heç kimə etibar etmək olmaz. Lakin özün üçün yazmaq xüsusi bir ədəbi sənətdir və buna ancaq başqalarına müraciət etmək ideyası ilə nail olmaq olar.

# 1

Mən Nazirlər Şurasına daxil oluram. Nazirlər gözlərini sənədlərə zillədikləri anda baxışlarımı uzaqlara dikərək içəri girirəm. Aramızdakı fərq yaradan məqam da elə budur. Bəziləri sizə deyəcək ki, münasibətlərimizi tənzimləyən Konstitusiya köhnəlib. Xüsusən də zamanla uyğunlaşmaq kimi bir üstünlüyə malik olsa da, uzun müddətdir, bir sıra pozuntular qeydə alınıb.

May ayında seçildiyim vaxtdan bəri vaxtından əvvəl keçirilən seçkilər zamanı – mənim bir daha ora qayıtmamağım üçün kifayət qədər yaxşı bildiyiniz səbəblər var – siyasi fəaliyyətimin çoxu qanunvericilik seçkilərinə, parlamentin fəaliyyətinə, formal və ya qeyri-rəsmi ittifaqlara həsr olunub və artıq həlledici zərbəni endirməyin vaxtıdır. Mən nə ad üçün, nə də hipotetik təkrar seçkiləri gözləyən zaman vaxt qazanmaq üçün seçilmişəm. Heç kim mənim bura gəlib çıxacağımı təsəvvür etmirdi, amma indi mən buradayam və sələflərim kimi yuxuya getməyə özümə icazə verməyəcəyəm.

Nazirlərin yavaş-yavaş mənə sarı çevrilən baxışlarından iki həftədir medianı çılğınlıqla qarışdıran bu işdə iştirakımla bağlı yaranmış sualları oxuyuram. Bilmirəm, bu məqamda çılğınlıq termini isteriyadan daha uyğundur, ya yox, amma istənilən halda, söhbətimiz məhz bundan ibarətdir. Şərhçilər ordusu söz-söhbət sferasını qızışdırmaq üçün səfərbər olunub. İnternet aləmi də bu məsələdən kənarda qalmayıb. Hər bir nazir üzümdəki ifadədən "iş"lə bağlı həqiqəti öyrənmək ümidi ilə məni araşdırır. Mən Şuraya sakit və inamlı səslə başlayaraq ümumi fərziyyələri yarıda kəsirəm:

– Mən özümü sizə prezident funksiyasının mahiyyəti baxımından təqdim edirəm, ilkin olaraq Generalın[1] ruhunda olduğu şəkildə və bunu partiyalardan da yuxarıda olan ilham mənbəyi kimi görürəm. Bu gün qəbul edəcəyimiz qanun layihəsi mənim ambisiyalarıma uyğundur. Bu bizə rəqəmsal texnologiyadan geniş istifadə etməklə, bildiyiniz kimi, mütləq fövqəladə hal olan qlobal istiləşmə ilə mübarizədə həlledici mərhələyə daxil olmağa imkan verəcək. İsti dalğalar, yanğınlar, daşqınlar, quraq torpaqlar üzündən dağılmış evlərin çoxalması (təkcə bu il üçün iyirmi min) bizə qeyri-müəyyən gələcəyin artıq indiki zamanımızda təzahür etdiyini sübut edir. Mənim sələflərim özləri üçün çox güclü hesab etdikləri maraqları pozmamaq və ya sadə razılıq üçün evin yanmasına icazə veriblər... Bilirəm ki, bəziləri artıq gec olduğunu düşünür, amma bu heç nə et-

[1] Burada Generel Şarl de Qoll nəzərdə tutulur.

mədiyi üçün vicdanı təmizləməyin bir üsuludur, mən isə buna görə seçilməmişəm. Bu gün bizim ciddi şəkildə suya, enerjiyə, hər şeydən əvvəl isə təvazökarlığa ehtiyacımız var! Biz dünyada tək olduğumuza inanırıq. Mənzərələrimizi formalaşdıran çılğın fərdiyyətçilik, israfçılıq, dirilərə və ölülərə nifrət bizi uçurumun kənarına aparır və biz heç bir səbəb olmadan xoşbəxtliklə ümid etməyə davam edirik, halbuki həyat bizim şüursuz hərəkətlərimizin gurultusundan başqa ətrafımızdakı hər şeyi yox edir.

Böyük cümlələrə son verək. Nazirlər Şurasının tam mərkəzində yüksəklərdən başlamaq yaxşıdır, amma biz dərhal "praqmatik möcüzə" effektini yaratmalıyıq. Bu mənim ünsiyyət üsulumdur və mən bunun təsirli olduğuna inanıram. Ona görə də mən dərhal izah etməyə çalışdım ki, rəqəmsal texnologiyanın təkamülü indi insan haqqında hər şeyi şeytani dəqiqliklə bilməyə imkan verir:

– Vətəndaşın hərəkətlərinə aid hər şey ticarət mallarının alışının, enerji, su və səyahət xərclərinin nəzərdə tutulduğu alqoritm vasitəsilə qeydə alına, toplana və işlənə bilər və bütün bu hərəkətlər düzəldilə bilən məlumatlar meydana gətirir. Buna görə də fərdi karbon izi yaratmaq asandır və hər kəs qlobal istiləşməyə və ətraf mühitin deqradasiyasına verdiyi töhfədə eyni dərəcədə fərdi məsuliyyət daşıyır. Vətəndaşlar hərəkətlərinin nəticələri barədə məlumatlandırılacaqlar. Məsələn, əgər istehlak edilən ət Argentinadan gəlirsə, bu onun yetişdirilmə və daşınma üsulunu nəzərə alan hər kilo üçün $CO_2$ çəkisini verir. Hət-